Qızılca və məxmərək xəstəliyi nədir və qarşısının alınması yolları

Azərbaycan Respublikası Ümumdünya Səhiyyə Təşkilatının 2015-ci ilə qədər Avropa regionunda qızılca və məxmərək xəstəliklərinin eliminasiyasına nail olmaq məqsədinə qoşulmuşdur. 2013-cü ildə Avropanın bir sıra ölkələrində, o cümlədən Azərbaycanla həmsərhəd olan Gürcüstan və Rusiya Federasiyasında qızılca xəstəliyinin alovlanması baş vermişdir. Azərbaycanda da geniş yayılmasa da gətirilmə hadisələri ilə əlaqəli olan xəstəlik halları qeydə alınmışdır.

Bu xəstəliklərin qarşısının alınması məqsədilə rayonumuzda 2014-cü il oktyabr ayının 14—28 tarixində 11—15 yaşlı məktəbli uşaqlar arasında qızılca və məxmərəyə qarşı təmizləyici immunlaşdırma tədbirləri aparılır.

Məxmərək—kəskin infeksion virus xəstəliyidir. İnfeksiya hava-damcı yolu ilə (xəstə asqırarkən, öskürərkən) digər insanlara keçir.

Xəstəliyin əvvəlində uşağın hərarəti bir qədər qalxır, ümumi zəiflik, bəzən burun tənəffüsünün çətinləşməsi, zökəm, öskürək əmələ gəlir, ənsə və arxa boyun limfa vəziləri böyüyür.

Daha sonra, əvvəlcə sifətdə, sonrakı bir neçə saat ərzində isə bütün bədənə yayılan qırmızımtıl ləkələr (ölçüləri 5—10 mm olan) şəklində səpgilər əmələ gəlir. 2—3 gündən sonra səpgilər özlərindən sonra heç bir iz (piqmentasiya, qabıqvermə və s.) qoymadan yox olurlar.

Məxmərək xəstəliyindən sonra fəsadlar çox nadir hallarda baş verir. Xəstəliyin müalicəsi ev şəraitində aparılır. Müalicə dövründə vitaminlərlə zənginləşdirilmiş pəhriz rejimi məsləhət görülür.

Müalicə zamanı heç bir spesifik dərman preparatlarından istifadə olunmur. Müvafiq tələbat yarandığı halda həkim tərəfindən vitaminlər, zökəm və öskürəyə qarşı dərmanlar təyin edilə bilər.

Virus plasenta (cift) vasitəsi ilə dölə keçərək, hamiləliyin pozulmasına, doğulacaq uşaqda müxtəlif inkişaf qüsurlarının əmələ gəlməsinə (karlıq, ürək qüsurları, mərkəzi sinir sisteminin zədələnməsi və s.) səbəb ola bilər.

Məxmərək xəstəliyindən qorunmağın ən yaxşı yolu peyvənd edilməsindən ibarətdir. Məxmərəyə garşı peyvənd olunmamış və yaxın zamanlarda hamilə olmağı planlaşdıran qadınlar buna xüsusi diqqət yetirməlidirlər.

Keçirilmiş məxmərək xəstəliyindən sonra davamlı, ömürlük immunitet yaranır.

Qızılca-infeksion xəstəliyi qızılca virusu törədir. İnfeksiya xəstə insandan hava-damcı yolu ilə (asqırarkən, öskürərkən) digər insanlara keçir. Virus çox uçucu və davamlı olub uzaq məsafələrə yayıla bilər.

İstənilən yaşda olan uşaqlar və böyüklər bu xəstəliyə yoluxa bilərlər.

Xəstəlik hərarətin yuksəlməsi ilə başlayır, uşaq əzgin, zəifləmiş olur, burundan xeyli miqdarda əvvəlcə selikli, daha sonra selikli-irinli ifrazat xaric olur, xırıltılı səs, öskürək qeyd edilir. Gözlər qızarır, işıqdanqorxma, gözün tez-tez yaşarması baş verir.

Xəstəliyin 2—3-cü günü praktik olaraq bütün bədən xırda qırmızımtıl səpgilərlə örtülür. Xəstəliyin 4—5-ci günü səpgilər qəhvəyi rəng alır. Qızılca zamanı müxtəlif fəsadlar da (pnevmoniya, otit, enterokolit) baş verə bilər. Qızılca xəstəliyindən ölüm halları da baş verə bilir (xoşbəxtlikdən çox nadir hallarda—əksərən kiçik yaşlı körpələrdə).

Qızılca xəstəliyinin müalicəsi əsasən ev şəraitində aparılır. Xəstəxanaya ancaq kiçik yaşlı uşaqları yerləşdirirlər (fəsad vermək qorxusu olduğundan). Uşağın olduğu otaq mütəmadi olaraq nəm əsgi ilə silinməli, havası tez-tez dəyişdirilməlidir. Otağa işıq düşməsini maksimal şəkildə məhdudlaşdırmaq lazımdır. Uşağın əl-üzünü tez-tez yumaq, gündə 1—2 dəfə gözlərini yumaq, hər qida qəbulundan sonra isə ağızı yaxalamaq (stomatitin profilaktikası üçün) lazımdır.

Xəstə uşağın qidası ilıq, yumşaq şəkildə olmalı, ona mümkün qədər çox miqdarda mayelər (şirələr, üzüm və itburnu dəmləmələri, ilıq süd, limonlu və ballı çay) vermək lazımdır. Antibiotiklər əsasən 3 yaşınadək olan uşaqlara (həmçinin fəsadlaşmış hallarda) təyin edilir.

Xəstəlik keçirdikdən sonra orqanizmdə ömürlük immunitet formalaşır.

Digər infeksion xəstəliklər kimi, qızılca xəstəliyindən də qorunmağın ən yaxşı yolu müvafiq peyvəndin edilməsindən ibarətdir.

Sədiyar HÜSEYNOV,
Qəbələ rayon GEM-nin
həkim-bakterioloqu,
epidemioloji şöbə müdiri.

Qəbələdə "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə respublika çempionatının final yarışı keçirilmişdir

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Qəbələ Olimpiya İdman Kompleksində "Vətənin Müdafiəsinə Hazıram" poliatlon çoxnövçülüyü üzrə respublika çempionatının final yarışı keçirilmişdir.

Tədbirin açılış mərasimində Qəbələ Rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov qonaqları və idmaçıları salamlayaraq respublikada idmana göstərilən dövlət qayğısından danışmışdır. Daha sonra Gənclər və İdman Nazirliyinin sektor müdiri Aydın Məmmədov çıxış edərək yarışın məqsədi və vəzifələri barədə məlumat vermiş və idmançılara uğurlar arzulamışdır.

Beynəlxalq Poliatlon Çoxnövçülüyü Assosiasiyasının qaydalarına əsasən 100 metr məsafəyə qaçış, turnikdə dartınma, qumbaraatma və 2000 metr kross qaçışı üzrə keçirilən yarışlarda respublikanın 14 komandası iştirak etmişdir.

Yarışın nəticəsinə əsasən şəhər komandaları arasında Sumqayıt komandası I, Bakı şəhərinin Xəzər komandası II, Naxçıvan şəhər komandası III yerə çıxmışlar.

Rayon komandaları arasında isə Qax rayonu I, İsmayıllı rayonu II, Biləsuvar rayonu III yeri tutmuşlar. Qalib komandalara Gənclər və İdman Nazirliyinin kubok və diplomları təqdim edilmişdir.

Dövlət Neft Fondu mənfəət neftinin və qazın satışından 10 milyard manata yaxın gəlir əldə edib

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə cari ilin doqquz ayında büdcə gəlirləri 10 milyard 131,9 milyon manat, büdcə xərcləri isə 8 milyard 041,2 milyon manat təşkil edib. Yanvar-sentyabr aylarında ARDNF-nin neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 9 milyard 969,6 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından əldə etdiyi gəlir 9 milyard 947,8 milyon manat, tranzit gəlirləri 6,8 milyon manat, bonus ödənişləri 13,3 milyon manat akrhesabı ödənişləri isə 1,7 milyon manat olub.

Ötən müddətdə Dövlət Neft Fondunun vəsaitlərinin idarə olunmasından əldə edilən gəlirlər 162,3 milyon manat təşkil edib.

Peyntbol idman növü üzrə respublika çempionatı keçiriləcəkdir

8—9 noyabr 2014-cü il tarixlərində Qəbələ şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü və Konstitusiya gününə həsr edilmiş Hüquq mühafizə orqanları, silahlı qüvvələr və digər strukturların Peyntbol idman növü üzrə Respublika Çempionatı keçiriləcək. Çempionat Azərbaycan Respublikası Peyntbol Federasiyasının təşkilatçılığı və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Milli Olimpiya Komitəsi və ASAN Xidmətlə qarşılıqlı əməkdaşlıq şəraitində baş tutacaqdır. Artıq bu məqsədlə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Azərbaycan Respublikası Peyntbol Federasiyası tərəfindən təsdiqlənmiş rəsmi əsasnamə dəvət olaraq aidiyyatı orqanlarına göndərilmişdir. Dialoq.info xəbər verir ki, yarış təşkilatçıları və iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Qəbələ şəhərindəki büstünün qarşısına gül dəstələrini qoyaraq ulu öndərin xatirəsini anacaqlar. Qəbələdə Çempionatın təntənəli açılışı mərasimi keçiriləcək, rəsmi şəxslər iştirak edəcəklər. Öncə Azərbaycan Respublikasının dövlət himni səsləndiriləcək, daha sonra yarışlara start veriləcək. Yarışlar Qəbələ Atıcılıq Mərkəzində və Qəbələ Olimpya İdman Kompleksində keçiriləcək. Çempionatın keçirilməsində məqsəd silahlı qüvvələr və hüquq mühafizə orqanı əməkdaşlarının fiziki hazırlığının artırılmasına dəstək vermək, Azərbaycan Respublikası Prezidentinin tövsiyələrinə uyğun olaraq idman siyasətinin həyata keçirilməsi, yeniyetmə və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi və gənclərin sağlamlığının qorunması işinə xidmət göstərilməsidir. Çempionat Azərbaycan Respublikasının silahlı qüvvələri və hüquq mühafizə orqanları idman klublarının nümayəndələri, əməkdaşlarının (müvafiq təhsil strukturlarının kursantları, mudavimləri, kadetləri, təlim tədris mərkəzinin əməkdaşaları, eləcə də bu qurumları aid edilə bilinəcək bütün personal daxil olmaqla) komandaları üçün Komandalar hər biri 6 nəfərdən ibarət olmaqla silahlı qüvvələrin şəxsi heyəti və hüquq mühafizə orqanları əməkdaşlarından və o cümlədən çempionatda iştitakda maraqlı olan digər dövlət orqanları əməkdaşlarından təşkil edilməlidir. Silahlı qüvvələrin şəxsi heyəti və hüquq mühafizə orqanlarının komandaları birgə, yaxud ayrılıqda təşkil edə bilərlər. Ümumi komanda hesabında hakimlər kollegiyasının qərarı ilə 1-ci, 2-ci və 3-cü yeri tutmuş komanda üzvləri Gənclər və İdman Nazirliyinin birinci dərəcəli diplomu, kubok, medallar və eləcə də qiymətli hədiyyələrlə təltif ediləcəklər. Çempionatda iştirak etmək üçün silahlı qüvvələr, hüquq mühafizə orqanlarında yaxud digər orqanlarda işləyən şəxslər və onun tərkibi barədə yazılı məlumat 25 oktyabr 2014-cü il tarixədək təqdim olunmuşdur. Komandaların tərkibi Komandanın kapitanl da daxil olmaqla 6 nəfərdən ibarət olmalıdır. Müraciətləri Çempionatın təşkili üzrə kurator Abdullayeva Cəmilə Sabir qızına göndərilməlidir.